**Pərinuş Sənii**

# MƏNİM PAYIM

Tərcüməçi:
Məsumə Şükürzadə

QANUN NƏŞRİYYATI

Parinoush Saniee

# SAHME MAN

Atası və qardaşları 16 yaşlı Məsuməni üzünü görmədiyi oğlana zorla ərə verirlər. Məsumə başqasını sevir. Ali təhsil almaq istəyir. Zorla ərə verildiyi oğlana təslim olmaqdansa, intiharı üstün sayan Məsumə hələ bilmir ki, onun əri ölkənin azadlığı, insanların rifahı üçün mübarizə aparan inqilabçı, təhsilli və müasir adamdır. Sadə və dindar ailənin hicablı, imanlı qızı ateistlərin, solçuların, inqilabçıların arasına düşür...

Hazırda mühacirətdə yaşayan Pərinuş Səniinin "Mənim payım" avtobioqrafik romanında İran qadınının həyatı, ailədə, cəmiyyətdə ona olan münasibət sadə və natural şəkildə təsvir olunur.

**Parinoush Saniee** **SAHME MAN**
**Pərinuş Sənii** **MƏNİM PAYIM**

Janr: avtobioqrafik roman
Yaş qrupu: 16+
Ölçü: 145x210 mm
Cild: yumşaq
Səhifə sayı: 352

| | |
|---|---|
| Naşir: | Şahbaz Xuduoğlu |
| Tərcüməçi: | Məsumə Şükürzadə |
| Redaktor: | Günel Mövlud |
| Korrektorlar: | Gülnar Elşənqızı, Flora Əliyeva |
| Mətn dizaynı: | Rahilə Şamil |
| Qapaq dizaynı: | Rafael Qasım |

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, AZ 1102, Tbilisi pr., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-26-597-2

© Qanun Nəşriyyatı, 2024; 2026
© Parinoush Saniee, 2003

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım
hüquqları Qanun Nəşriyyatına məxsusdur.
Kitabın təkrar və hissə-hissə nəşri «Müəlliflik hüququ və əlaqəli
hüquqlar haqqında» Azərbaycan Respublikasının Qanununa ziddir.

# I fəsil

Biz Qumdan Tehrana köçəndə atam məktəbə getməyimə icazə verdi. Hətta ona deyəndə ki, Tehran məktəblərində heç kəs çadra örtmür, başıma çadra yerinə yaylıq bağlamağa icazə verdi.

Amma bir şərt qoydu ki, onun ləyaqətinə xələl gətirməyim.

Abbas əmimə qurban olum. Bir dəfə eşitdim ki, atama deyir:

– Qardaş, qızın zatı gərək yaxşı ola. Məsələ hicabda-zadda deyil. Əgər pis olsa, çadranın altından da min dənə iş görə bilər. İndi ki Tehrana gəlmisən, gərək tehranlılar kimi yaşayasan. Keçdi o zamanlar ki, qızı evdə həbs edirdilər. Qoy məktəbə getsin. Geyimi də o birilər kimi olsun. Yoxsa hamı onu barmaqla göstərər.

Abbas əmim çox düşüncəli adam idi. Belə də olmalı idi. On ilə yaxın idi ki, Tehranda yaşayırdı. Quma ancaq orada kimsə öləndə gələrdi. Atamın anası, rəhmətlik nənəm hər dəfə Abbas əmi gələndə deyirdi:

– Abbas, niyə mənə belə gec-gec baş çəkirsən?

Abbas əmi də hündürdən gülərək:

– Nənə, neynəyim, qohumlara de ki, tez-tez ölsünlər, mən də Quma tez-tez gəlim, – deyirdi.

Nənəm əlini üzünə elə bərk çırpırdı ki, izi uzun müddət getmirdi.

Abbas əminin həyat yoldaşı tehranlı idi. Həmişə Quma gələndə çadra örtərdi. Hamı bilirdi ki, o, Tehranda hicab örtmür. Heç qızları da belə şeylərə əməl eləmirdilər. Məktəbə də hicabsız gedirdilər.

Nənəm öləndən sonra atam onun biz yaşadığımız evini satıb hamının payını verdi.

Abbas əmi atama dedi:

– Qardaş, bura yaşanası yer deyil. Paylarımızı qoyaq bir-birinin üstünə, gedək Tehrana. Sən də yavaş-yavaş həyatını yoluna qoy. Pulu Tehranda da qazanmaq olar.

Birinci böyük qardaşım Mahmud etiraz elədi. Dedi ki, Tehranda adamın imanı əlindən gedər. Amma Əhməd qardaşım sevinib deyirdi:

– Ora köçsək, biz də adam arasına çıxarıq.

Anam deyirdi:

– Qızları da fikirləşin. Onlar orada yaxşı ər tapa bilməzlər. Axı bizi orada heç kəs tanımır. Bütün tanışlarımız buradadırlar. Biri məktəbə gedəcək. Allah bilir, Tehranda nə yola düşəcək. Hamı deyir ki, Tehranda böyüyən qızlar min hoqqadan çıxır.

Əli o vaxt ibtidai məktəbin 3-cü sinfində oxuyurdu. Onun məsələyə münasibəti belə oldu:

– Məgər mən ölmüşəm? Onlara elə göz olacağam ki, heç yana tərpənə bilməyəcəklər.

Sonra Fatiməyə elə bir təpik vurdu ki, qız qışqırdı. Mən gedib onu qucaqladım:

– Qardaş, niyə elə deyirsən, məgər Tehranın qızlarının hamısı əxlaqsızdı?

Tehrandan ötrü ölən Əhməd qardaşım dedi:

– Sən səsini kəs. Əgər problem Məsumədirsə, burada onu ərə verib, sonra Tehrana gedərik. Belə daha yaxşı olar. Fatiməni də Əliyə tapşırarıq. – Bunu deyib fəxrlə Əlinin kürəyinə vurdu. – Bu, qeyrətli uşaqdı, ağlı başındadır.

Ürəyim qopub düşdü. Əhməd qardaşım elə əvvəldən mənim məktəbə getməyimə razı deyildi. Özü dərs oxuyan deyildi, 7-ci sinifdə neçə dəfə kəsilmişdi. Axır ki, təhsili yarımçıq qaldı. İndi mənim dərs oxumağımı istəmirdi. Rəhmətlik nənəm də mənim yaxşı oxumağımdan narahat idi. Tez-tez anamın üzünə vururdu:

– Qızının əlindən heç bir iş gəlmir. Ər evinə getsə, bir aydan sonra boşayacaqlar – sonra atama deyirdi – bu qıza niyə bu qədər pul

xərcləyirsən? Qıza pul xərcləməyin heç bir xeyri yoxdur. Zəhmət çəkib pul xərcləyirsən – saxlayırsan, sonra nə qədər pul xərcləyib ərə verirsən.

O vaxt Əhmədin artıq 20 yaşı olduğuna baxmayaraq, düz-əməlli bir işi yox idi. Əsədulla dayının dükanında şagird olsa da, həmişə küçələrdə avaralanırdı. Mahmud qardaşım ondan fərqli olaraq, bütün günü mağazada otururdu. Müzəffər bəy deyən kimi, dükanın bütün yükünü çəkirdi. Atam deyirdi ki, Müzəffər bəyin mağazasını Mahmud işlədir.

Mahmud Əhməddən cəmi 2 yaş böyük olsa da, Allah adamı idi. Namazı, orucunu ötürməzdi. Hamı deyərdi ki, Mahmud elə bil Əhməddən ən azı on yaş böyükdür. Anam çox istəyirdi ki, xalamız qızı Səadəti ona alsın. Deyirdi, seyiddi –peyğəmbər övladıdı.

Amma mən bilirdim ki, qardaşımın bibim qızı Məhbubədən xoşu gəlir. Həmişə Məhbubə bizə gələndə Mahmud qardaşımın rəngi dəyişirdi. Ağarıb-qızarırdı. Dili topuq vururdu. Yavaşca bir qıraqda durub Məhbubəyə baxırdı. Xüsusilə də o vaxt ki, qızın çadrası başından düşürdü.

Gözünə döndüyüm Məhbubə də elə laqeyd idi ki, hicabını başında saxlamırdı. Elə ki nənəm dava edib, ona evdə naməhrəm olduğunu deyirdi, Məhbubə:

– Nənəcan, bunlar mənim qardaşlarımdır, – deyə qəhqəhə çəkib gülürdü.

Görürdüm ki, həmişə Məhbubə gedəndən sonra Mahmud iki saat namaz başında oturub "əstəğfürullah, əstəğfürullah" deyirdi. Yəqin, nəsə fikrində günah işlətmiş olurdu.

Nə vaxt idi ki, Tehrana getməkdən ötrü evimizdə dava gedirdi. Tək bir şeydə hamı həmrəy idi ki, məni ərə verib, rahat getsinlər. Elə bil Tehranda hamı oturub məni gözləyirdi ki, ora gəlim, məni yoldan çıxartsınlar. Mən hər gün Həzrəti Məsumə məscidinə gedib dua edirdim ki, ailəm məni də özü ilə aparsın, orada məktəbə gedim.

Ağlayaraq deyirdim: kaş mən də oğlan olaydım. Ya da Zəri kimi difteriyaya tutulub öləydim. Zəri üç yaş məndən böyük idi. Səkkiz yaşında difteriyaya tutulub ölmüşdü.

Şükür Tanrıya, dualarım qəbul olundu. O müddətdə qapımızı elçi-zad döymədi. Atam yavaş-yavaş işlərini yerbəyer elədi. Abbas əmi Qurqan xiyabanının ətrafında bir ev kirayələdi. Sonra da həmin evi aldıq. Hamı mənə görə çaşbaş qalmışdı. Anam gözünə yaxşı adam dəyən kimi deyirdi ki, Məsumənin də ərə getmək vaxtıdır. Mən utandığımdan və hirsimdən qızarırdım. Amma Tanrı mənim tərəfimi saxlayırdı. Qoymurdu ki, mənə elçi gəlsin.

Axırda naəlac qalıb, iki dəfə evlənib-boşanmış bir adama təklif elədilər ki, bir dəfə də irəli dursun. Həmin adamın maddi vəziyyəti də yaxşı idi, gənc də hesab eləmək olardı. Amma heç kim bilmirdi ki, o, niyə bir neçə aydan sonra arvadını boşayıb.

O adam olduqca çirkin idi. Onunla birlikdə yaşayacağımızı təsəvvürümə gətirəndə utanmağı və hörməti kənara atıb, özümü atamın ayaqlarına ataraq göz yaşı tökdüm. Axır ki, atam məni də özləri ilə Tehrana aparmağa razı oldu.

Atam yumşaq adam idi. Bilirdim ki, qız olduğuma görə məni çox istəyir. Bacım Zərinin ölümündən sonra atam məni görəndə özündən asılı olmayaraq titrəyirdi. Mən çox arıq idim, atam qorxurdu ki, birdən mən də ölərəm.

Həmişə fikirləşirdi ki, Zəri doğulanda qızı olduğuna görə naşükürlük edib və bu Allahın acığına gedib. Ona görə də Zərini onların əlindən alıb.

Bəlkə mən dünyaya gələndə də naşükürlük etmişdi. Kim bilir? Amma mən onu çox istəyirdim. Bizim evdə məni təkcə o başa düşürdü. Həmişə atam səfərdən gələndə dəsmalı götürüb hovuzun kənarına gedirdim. Əlini mənim çiynimə qoyub, ayaqlarını neçə dəfə hovuzun suyuna basıb-çıxarırdı. Əl-üzünü yuyandan sonra dəsmalı alıb üzünü qurulayırdı. Dəsmalın üstündən o açıq-qəhvəyi gözləri ilə baxırdı – bilirdim, məni sevir və məndən razıdır. Hərdən onu öpmək istəyirdim. Amma bir böyük qızın kişini öpməyi düz deyildi. O kişi atası olsa belə.

Uzun sözün qısası, atamın mənə ürəyi yandı. Mən də bacardığım qədər and içdim ki, Tehranda onun namusuna xələl gətirməyə-

cəyəm. Tehranda məktəbə getməyim də problem idi. Qardaşlarımın ikisi də mənim dərs oxumağıma etiraz eləyirdi. Anam dərzilik kurslarına getməyimi istəyirdi. Amma ağlayaraq atamı razı saldım – o, hamının cavabını verdi. Adımı orta məktəbin 8-ci sinfinə yazdırdı. Məktəb evimizdən bir neçə küçə aralı idi. 15-20 dəqiqə piyada yol getmək lazım olurdu. Əvvəl-əvvəl məni özü aparıb-gətirirdi – heç nə demirdim.

Çadramdan möhkəm tutub muğayat olurdum ki, heç kimə bəhanə verməyim. Qardaşım Mahmud mənimlə danışmırdı.

Qardaşlarım özlərinə iş tapdı. Mahmud Müzəffər bəyin dükanında işə düzəldi. Əhməd də Piçşimran tərəfdə şagirdliyə başladı. Özünə çoxlu dost tapdı. Axşamlar onlarla gedirdi. Gecələr evə gec gəlirdi. Yavaş-yavaş evdə hamı ondan araq iyi gəldiyini hiss elədi. Amma heç kim bunu onun üzünə vurmadı. Atam başını aşağıya dikib onun salamını almırdı.

Mahmud üzünü döndərib: “Əstəğfürullah!” – deyirdi.

Anam tez-tez onun soyumuş yeməyini qızdırırdı. Deyirdi ki, bu nə cür dərddir axı, heç düzəlmir. Anam həmişə Əhmədin işlərinin üstünü örtməyə çalışırdı. O, anamın əziz balası idi.

Sonra Əhmədin təzə hoqqası başladı. Yuxarı otağın pəncərəsindən qonşu Pərvin xanımın evinə baxırdı. Pərvin xanım həyətdə bir iş görəndə həmişə çadrası başından düşürdü. Əhməd də qonaq otağının pəncərəsindən tərpənmirdi. Özüm bir dəfə o biri pəncərədən gördüm ki, bir-biriləri ilə işarələrlə danışırdılar.

Beləliklə, Əhməd qardaşımın başı elə qarışıq idi ki, mən yadından çıxmışdım. Hətta atamın icazəsi ilə yaylıqla mədrəsəyə gedəndə cəmi iki gün dava-dalaş elədi – sonra yadından çıxdı.

Amma Mahmud qardaşımın yadından çıxmamışdı. Mənimlə danışmırdı. Dava da eləmirdi. Mən ona böyük bir günah işləmiş kimi görünürdüm. Hətta mənə baxmırdı. Bunların heç birinin mənim üçün əhəmiyyəti yox idi. Çünki məktəbə gedirdim, dərslərimi yaxşı oxuyurdum. Sinif yoldaşlarımla dostlaşmışdım.

Daha dünyadan nə istəyirdim? Çox sevinirdim. Xüsusilə Pərvanə ilə yaxın rəfiqə olandan sonra. And içmişdik – bir-birimizdən heç nəyi gizlətməyəcəkdik.

Pərvanə gülərüz, çox şux bir qız idi. Yaxşı voleybol oynayırdı. Məktəbin komandasının üzvlərindən idi. Dərslərini elə də yaxşı oxumurdu. Bilirdim ki, pis qız deyil. Amma çox şeylərə riayət eləmirdi. Yəni nəyin yaxşı, nəyin pis olduğunu başa düşmürdü. Atasının adını fikirləşmirdi. Hətta qardaşlarından da qorxmurdu. Deyirdi, davamız olanda, onlar məni vuranda mən də onları vururam. Hər şeyə gülürdü. Hətta küçədə də. Elə bil heç kəs ona deməmişdi ki, qız güləndə dişləri görünməməlidi. Qızın gülüşünü heç kim eşitməməlidi.

Deyəsən, mən də ona qəribə görünürdüm. Nəyinsə pis olduğunu ona deyib çəkindirmək istəyəndə təəccüblə mənə baxıb soruşurdu:

– Axı niyə?

Hərdən mənə elə baxırdı ki, elə bil dağ başından gəlmişəm. Məsələn, o, bütün maşınların adını bilirdi və atasının ona qara “Şevrolet” almasını istəyirdi. Mən bilmirdim, heç o “Şevrolet”i tanımırdım da. Amma özümü görməmiş kimi göstərmək də istəmirdim.

Bir gün təzə bir maşın görəndə ona göstərib dedim:

– Pərvanə, sən o “Şevrolet”dən istəyirsən?

Pərvanə mənə baxdı və güldü.

Onların evlərində həm radio, həm də televizor var idi. Mən televizoru Abbas əmimgildə görmüşdüm. Amma özümüzün böyük bir radiomuz var idi. Nənəm sağ olanda, Mahmud qardaşım evdə olanda musiqiyə qulaq asa bilməzdik. Xüsusilə oxuyan qadın olanda və ya oynaq mahnı səsləndiriləndə.

Əlbəttə, atam və anam da musiqinin haram olduğunu düşünürdülər. Çox imanlı adamlar idilər. Amma heç biri Mahmud qardaşım kimi çətin adam deyildi. Hətta musiqidən xoşları da gəlirdi. Mahmud olmayanda anam radionu açırdı, amma elə eləyirdi ki, qonşular eşitməsin.

Anam şeir də bilirdi. Xüsusilə Purani Şapurun şeirlərini mətbəxdə dodağının altında mızıldayırdı.